

Xuraman Camalqızı

## DUYĞULARIM VARAQ ÜSTƏ AĞLAMA

Ağrılarım, əzablarım - sən özün,
Göz yaşımı bulut kimi tut, gözüm.
Ayrılığa inanma ki, mən dözüm,
Duyğuların varaq üstə ağlama,
Bu həsrəti belə təzə saxlama.

Unut getsin, ürəyindən sil onu,
Duyğusuzdu, ürəksizdi, bil onu.
Aparıbdı gedər-gəlməz yol onu,
Duyğlarım varaq üstə ağlama,
Bu həsrəti belə təzə saxlama.

Hiss etmədi səndə olan cövhəri,
Görmədi ki, ən qiymətli gövhəri,
Ağlar qoydu ala gözlü dilbəri,
Duyğularım varaq üstə ağlama,
Bu həsrəti belə təzə saxlama.

## YAĞIŞLA BƏRABƏR

Məndən uzaqlarda sən yenə varsan,
Pəncərə önündə çölə baxırsan.
Kövrək ürəyimə, duyğularıma,
Yağışla bərabər səndə yağırsan.

Yağışlı havada, tənha küçədə,
İslanmaq keçdimi bir an könlündən?
Sevgi dənizində, aylı gecədə,
Bir an oğurlanaq, keçən ömürdən.

Mənə elə gəlir, belə havada,
Yağış süzüləndə, sən üşüyürsən.
Baxçda çiçəyin, gülün üstünə
Şəbnəm düzüləndə nə düşünürsən?




kaspi.-2016.-22-25 oktyabr.-S.23.